# 525-ci qəzet

10 avqust 2012-ci il, cümə №143 (3699). Qiymәti 20 qәpik

www.525.az


## Öldürülən PKK terrorçuları arasında Ermənistan vətəndaşları da olub

### KEÇİRİLƏN XÜSUSİ ƏMƏLİYYATLAR ZAMANI ÖLDÜRÜLMÜŞ PKK TERRORÇULARININ SAYI 170-Ə ÇATIB

Türkiyədə Çukurca və Şəmdunli qəsəbələrində PKK terrorçularına qarşı əməliyyat davam edir. APA-nın məlumatına görə, Türkiyənin daxili işlər naziri PKK-ya qarşı əməliyyatlarla bağlı sensasion açıqlamalar verib. Nazir öldürülən PKK terrorçularının sayının 170-ə çatdığını, onların arasında çoxlu sayda xarici vətəndaşın olduğunu bildirib. İdris Naim Şahinin sözlərinə görə, zərərsizləşdirilən terrorçular arasında Suriya, İran, İsrail vətəndaşları ilə yanaşı Ermənistan vətəndaşları da var. Nazir öldürülən Ermənistan mənşəli terrorçuların sayını açıqlamayıb.

Qeyd edək ki, Hakkari vilayətində PKK terror təşkilatının 300-dək üzvü mühasirəyə alınıb. Artıq iki həftəyə yaxındır ki, terrorçuların zərərsizləşdirilməsi məqsədilə dağlıq ərazidə əməliyyat keçirilir.

Bu arada PKK terror təşkilatının İzmirin Foca məhəlləsində hərbi maşını partlatması nəticəsində yaralananların sayı 30 nəfərə çatıb. APA-nın məlumatına görə, bu barədə "TRT Haber" kanalı məlumat yayıb. Yaralılar əvvəlcə Foca dövlət xəstəxanasına çatdırılsalar da, sonradan vəziyyəti daha ağır olan altı hərbçi Ege Universitetinin Tibb Fakültəsinin reanimasiya şöbəsinə aparılıb. Həkim nəzarətində olan həmin yaralıların vəziyyəti orta ağır olaraq qalır.

Qeyd edək ki, terror aktı gerçəkləşdikdən az sonra yayılan ilk xəbərlərdə partlayış zamanı 1 hərbçinin şəhid olduğu, 4 hərbçinin yaralandığı bildirilirdi. Terror aktı bir qədər əvvəl gerçəkləşdirilib. Hərbi maşın yoldan keçən zaman yerə basdırdıqları minanı uzaqdan idarəetmə yolu ilə işə salan terrorçular daha sonra maşına atəş açmağa başlayıblar.




## Ərdoğan Bakıya gəlir



Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin ilkin tarixi açıqlanıb. Diplomatik mənbələrdən "Trend"ə verilən məlumata görə, Ərdoğanın səfəri sentyabrın 11-12-nə nəzərdə tutulub. Səfərin məqsədi Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlıq Şurasının növbəti iclasında iştirak etməkdir.

Hazırda Şuranın iclası ilə bağlı müvafiq sənədlərin hazırlanması işi aparılır.

Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq və qarşılıqlı yardım haqqında razılaşma Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdulla Gül tərəfindən 2010-cu il avqustun 16-da İstanbulda imzalanıb.

## *Sabir Rüstəmxanlı:* "Çöhrəqanlı həbs olunmayıb"



"Mahmudəli Çöhrəqanlının həbs olunması haqda məlumat həqiqətə uyğun deyil". Bu açıqlamanı APA-ya Dünya Azərbaycanlıları Konqresinin (DAK) həmsədri Sabir Rüstəmxanlı verib. S. Rüstəmxanlı deyib ki, M. Çöhrəqanlı hazırda ABŞ-dadır və hər hansı ciddi problemi yoxdur: "Əgər belə bir fakt olsaydı, yəni Mahmudəli bəy həbs olunsaydı, bizim məlumatımız olardı. Bizə isə belə bir məlumat daxil olmayıb".

Qeyd edək ki, Güney Azərbaycan Milli Oyanış Hərəkatının (GAMOH) lideri, DAK İdarə Heyətinin üzvü Mahmudəli Çöhrəqanlının həbsi ilə bağlı məlumatlar sosial şəbəkələrdə və bəzi xəbər portallarında yayılıb.

## Ermənistan Azərbaycanla sərhədi möhkəmləndirir

***ARTSRUN OVANNİSYAN:*** "AZƏRBAYCANLA SƏRHƏDİN MÖHKƏMLƏNDİRİLMƏSİ ARDICIL HƏYATA KEÇİRİLİR"

Ermənistanın Müdafiə Nazirliyi Azərbaycanla dövlət sərhədində möhkəmləndirmə işlərinin aparılması barədə yayılan məlumatları təsdiqləyib.Bu barədə APA "Armenpress" agentliyinə istinadən məlumat verib.Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan "Armenpress" agentliyinə açıqlamasında Azərbaycanla sərhədin möhkəmləndirilməsi işlərinin ardıcıl həyata keçirildiyini deyib. Onun sözlərinə görə, mövqelərinin təhlükəsizliyi məqsədi ilə müdafiə tikintiləri aparılır, mövqelər bərkidilir. Bu işlərin davam etdirilməsi nəzərdə tutulur. "Bu işlər mütəmadi aparılır. Lakin Azərbaycanın son günlərdə bu məsələyə nədən diqqət yönəltməsi aydın deyil", — deyə mətbuat katibi qeyd edib.

Qeyd edək ki, cari ilin aprel və iyun ayında Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən insidentlər zamanı Ermənistanın müdafiə naziri və prezidenti sərhəddə möhkəmləndirmə işlərinin aparılmasına ehtiyac olduğunu bəyan etmişdi. Azərbaycan tərəfinin müşahidələrinə görə, Ermənistan son iki ayda dövlət sərhədində müdafiə mövqelərini gücləndirməyə başlayıb. Əsasən gecə saatlarında həyata keçirilən işlərə Ermənistanın Müdafiə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti ilə yanaşı, ətraf kəndlərdən işçi qüvvəsi və texnika cəlb olunub.

## İran vizayla bağlı bəzi prosesləri ləğv edib

Azərbaycandan İrana səfər etmək üçün viza almaqla bağlı müraciət edənlərin sayı həddən çox olduğundan, İranın Bakıdakı konsulluğu viza təqdim etmə xidmətinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər görür. Bunu "Trend"ə İranın Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin rəhbəri Abbas İsgəndəri bildirib. A.İsgəndəri deyib ki, viza almaq üçün lazım olan bəzi proseslər ləğv olunub. Onun sözlərinə görə, xüsusilə, xəstələr üçün imtiyazlar mövcuddur. Həkimdən tibbi sənədləri olarsa, onlara viza qısa zamanda verilir: "Bundan başqa, sabah İranda Həzrət Əlinin (ə) vəfatı ilə əlaqədar rəsmi tətil olmasına baxmayaraq, İran konsulluğu işləyəcək və əhaliyə xidmət göstərəcək".

A.İsgəndəri qeyd edib ki, viza rejimi tətbiq olunandan sonra İrana getmək istəyən şəxslərin çoxluğuna görə konsulluq qarşısında növbə yaranır: "Konsulluğun əməkdaşları iş vaxtı bitdikdən sonra da viza alanların işini yerinə yetirmək üçün əlavə çalışırlar".

Avqust ayında Tehranda keçiriləcək Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət başçılarının Zirvə görüşü ilə əlaqədar 5-31 avqust tarixlərində Azərbaycan Respublikası vətəndaşlarına İran İslam Respublikasına səfər etmələri üçün viza rejimi tətbiq olunub.

## Moskva və İrəvan mavi yanacağın qiyməti barədə razılığa gəliblər

Rusiya və Ermənistan bu ölkəyə nəql olunacaq mavi yanacağın qiyməti ilə bağlı razılığa gəliblər. APA-nın məlumatına görə, Moskvada səfərdə olan Ermənistan prezidenti Serj Sərkisyan konkret rəqəm açıqlamasa da, qiymətin formalaşması prinsipi ilə bağlı ortaq məxrəcə gəldiklərini deyib. "Mavi yanacağın satış qiyməti bazardakı real qiymətlərə uyğun olacaq. Ermənistan mavi yanacaqla iqtisadiyyatının effektivliyini qoruyub saxlamaq şərtilə regional tariflərə uyğun gəlməlidir".

Qeyd edək ki, "Qazprom" hazırda mavi yanacağın hər min kubmetrini Ermənistana 180 dollara satır. Mavi yanacağın satış qiyməti Ermənistan və Rusiya prezidentlərinin dünən keçirilən görüşündə müzakirə olunub.

## Əsir əsgərimizin səhhəti ilə bağlı məlumat yayıldı

Ermənilərin əsir götürdüyü Azərbaycan Ordusunun hərbi qulluqçusu Firuz Fərəcovun sağlamlığı qaydasındadır. APA-nın məlumatına görə, bu barədə "News Armenia" portalına Ermənistan Əsir, itkin və girovlarla iş üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri Armen Kaprielyan bildirib. Onun sözlərinə görə, azərbaycanlı əsirin sağlamlıq durumu qaydasındadır və hər hansı problemi yoxdur. Qeyd edək ki, Azərbaycan Ordusunun hərbçisi F. Fərəcov iyulun 26-da Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb.

## Xəzərdə zəlzələ oldu

Xəzər dənizində zəlzələ olub. APA-nın Respublika Seysmoloji Xidmət Mərkəzinə istinadən verdiyi məlumata görə, zəlzələ bu gün yerli vaxtla saat 04-22-də qeydə alınıb. Lənkəran şəhərindən 118 km şimali-şərqdə Xəzər dənizində qeydə alınmış yeraltı təkanların gücü episentrdə 3 bal olub. Zəlzələ hiss edilməyib.

## "Qara polkovnik"in oğlu yol qəzasında dünyasını dəyişdi

Bakıda ölümlə nəticələnən ağır yol qəzası baş verib. Suraxanı rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə ötən gecə qeydə alınıb. Yüksək sürətlə idarə olunan, 1964-cü il təvəllüdlü Hüseynov Tahir Fətulla oğluna məxsus "Toyota" markalı avtomobil yoldan çıxaraq aşıb. Nəticədə avtomobilin sürücüsü T. Hüseynov aldığı xəsarətdən hadisə yerindəcə dünyasını dəyişib. Avtomobildə olan daha bir sərnişin xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, qəza nəticəsində dünyasını dəyişən şəxs "Qara polkovnik" kimi tanınmış Fətulla Hüseynovun oğludur. Faktla bağlı araşdırma aparılır.


### ELAN

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda.

Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.

**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 27 (həyət qapısından girmək lazımdır).**

**Telefon: (012) 493-98-74, (050) 395-18-54**


## *Hidayət Orucov:* "Hələ ki, iş barədə düşünmürəm"

### "YENİ VƏZİFƏ GÖZLƏMƏYİM MƏNDƏN ASILI OLAN MƏSƏLƏ DEYİL"

Bu il mayın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilən Hidayət Orucov Modern.az saytına açıqlama verib. Sabiq komitə sədri əməkdaşımıza bildirib ki, hazırda istirahət edir və buna ehtiyacı var: "Dincəlirəm və hələ ki, iş barədə düşünmürəm".

"Hökumətdən yeni vəzifə gözləyirsinizmi?" sualına Hidayət Orucovun cavabı belə olub:

"Bu, mənim gözləyib-gözləməməyimdən asılı olan məsələ deyil. Amma hazırda dincəlirəm, bir müddət buna ehtiyacım var".

Xatırladaq ki, 68 yaşlı H.Orucov 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri olub, 1993-2006-cı illərdə Azərbaycan Respublikası milli siyasət məsələləri üzrə Dövlət Müşaviri işləyib.

2005-2006-cı illərdə Azərbaycan Respublikası Prezidentinin Milli azlıqlarla və Dini Qurumlarla İş üzrə Dövlət müşaviri olub. O, 2006-cı ildən 2012-ci il mayın 31-dək Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışıb.



## *Nizami Xudiyev:* "Vəzifəyə getməyimi cəmiyyət biləcək"



Milli Məclisin sabiq deputatı, AzTV-nin sabiq sədri Nizami Xudiyev Modern.aza açıqlama verib. O qeyd edib ki, hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs deyir. Xatırladaq ki, o, əvvəllər də bu ali məktəbdə çalışıb.

Məşhur "91-lər"dən olan sabiq deputat bildirib ki, indiyə qədər müxtəlif vəzifələrdə işləyib. Bundan sonra hansı vəzifədə işləməyinə gəlincə isə "hazırda burada dərs deyirəm. Daha sonra hansı vəzifədə işləyəcəyimlə bağlı məlumatım yoxdur. Olanda cəmiyyət biləcək. Bu məndən asılı məsələ deyil", — deyə o, qeyd edib.

Dilçi professor Nizami Xudiyev 2010-cu il noyabrınadək Milli Məclisdə 56 saylı Xaçmaz kənd seçki dairəsini təmsil edib. O, 1994—1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, 1996-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifələrində çalışıb.

1995-2010-cu illərdə (15 il) deputat olub.

## Orduda daha bir qanlı olay

Azərbaycan Ordusu daha bir əsgərini itirib. APA-nın məlumatına görə, hadisə Şəmkir hərbi birləşməsinin Qazax rayonunda yerləşən hərbi hissəsində qeydə alınıb. Əsgər Bəhruz Seydulla oğlu Rəhimov hərbçi yoldaşının əlindəki silahdan açılan atəş nəticəsində dünyasını dəyişib. Məlumata görə, hadisə avtomat silahı təmizləyərkən baş verib. Ehtiyatsızlıqdan açılan güllə B. Rəhimova dəyib və o aldığı güllə yarasından vəfat edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər. Qeyd edək ki, B. Rəhimov Masallı rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

## Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Ermənistanın İcevan rayonunun Berkaber kəndində və Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə, işğal olunmuş Ağdam rayonunun Cəvahirli və Novruzlu, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı və Qorqan, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

## Havanın hərarəti 2-3 dərəcə aşağı düşəcək

### BAZAR GÜNÜ BƏZİ BÖLGƏLƏRDƏ HAVANIN HƏRARƏTİ 40 DƏRƏCƏYƏ ÇATACAQ

Yaxın iki gün ərzində Azərbaycan havalar bir qədər sərinləşəcək. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev bildirib. Onun sözlərinə görə, avqustun 10, əsasən də 11-də qısamüddətli şimal-qərb küləyinin əsməsi ilə əlaqədar havanın temperaturu 2-3 dərəcə aşağı enəcək: "Ayın 10-da Bakıda və Abşeron yarımadasında gündüz saatlarında 32-36 dərəcə, avqustun 11-də 30-35 dərəcə isti gözlənilir".

Azərbaycanın rayonlarında avqustun 10 və 11-də hava əsasən yağmursuz keçəcək. Ayın 10-da Aran rayonlarında havanın temperaturu 33-38, dağlarda 24-29 dərəcə olacaq: "Ayın 11-də də bölgələrdə temperatur 33-38 dərəcə olacaq. Lakin ayın 12-də bəzi yerlərdə 40 dərəcə isti gözlənilir".



# "Bu aksiya müsəlman dünyasının bir vəkilinin atacağı addımdır"

## *SEYİD CAMAL ƏZİMBƏYLİ:* "AC VƏ SUSUZ KÖRPƏLƏRLƏ 2 HƏFTƏ BİR ARADA OLMAQ ÖZÜ BİR İBADƏTDİR"

Müqəddəs Ramazan ayında bir sıra Afrika xalqları kimi Somalidən olan müsəlmanlar da susuzluqdan, şəraitsizlikdən əziyyət çəkir. Hətta xəstə körpələr dərman çatışmazlığından kütləvi şəkildə qırılır. Belə bir vaxtda millət vəkili Qənirə Paşayeva Somalidəki insanlara yardım məqsədilə səfər etdi. Amma geri qayıtdıqdan sonra ölkəmizdə fəaliyyət göstərən bir sıra xəbər saytları, eləcə də sosial şəbəkələrdə Qənirə Paşayevanın bu səfərini qeyri-obyektiv şəkildə şərh etməyə çalışırlar.



Məsələ ilə əlaqədar "525"ə açıqlama verən şərqşünas Seyid Camal Əzimbəyli bildirib ki, islam dünyasında Ramazan ayı bir fürsət və eləcə də bağışlanma, mərhəmət və rəhmət ayıdır. Onun sözlərinə görə, bu ay Allah dərgahında edilən bütün ibadətlər qəbul olunur: "Bu sevgiyə atılmış könüllərin bahar mövsümüdür. Bu ayda edilən hər bir xeyir əməl Allah dərgahında cavabsız qalmır. Belə bir mübarək ayda çox yaxından tanıdığım,əməli fəaliyyətini yaxından izlədiyim, hətta birilərinin mətbuatdan bilmədiyi onlarla xeyir əməl sahibi olan millət vəkili Qənirə Paşayevanın bir neçə gün öncə Somaliyə getməsi məni və tanıdığım onlarla gerçək mənəviyyat adamlarını təsirləndirib. Orada imkansız, hətta susuzluqdan belə zəlalət içərisində yaşayanlar var. Millət vəkilinin bu addımı və hər 3 dəqiqənin içərisində bir uşağın bu dünyadan ölüb getməsi faktına qarşı etinasız yanaşmaması, öz maliyyə gücü ilə, imkanı çatacaq və özünün içindəki insani duyğuları ilə ora getməsi həqiqətən edilən xoş əməldir. Amma təəssüflər olsun ki, biriləri şeytanların zəncirdə olduğu bir ayda Qənirə xanımın bu addımını təqdir etmək əvəzinə, özləri bir işə yaramadıqları halda belə mübarək əməllərə imza atan adamın gördüklərinə kölgə salmaq istəyirlər. Düşünmürlər ki, Qənirə Paşayeva orada əlində və başının üzərində hər an Azərbaycan bayrağı dalğalanıb. Orada yardımlaşma dərnəklərinin vurduqları tablolara baxdıqda orada "Azərbaycan Cümhuriyyətindən gələn qardaşlarımıza təşəkkür edirik" yazılıb. Bu məsələlərdə dövlətə, mənəviyyata, insanlığa o qədər də aidiyyatı olmayan insanların mübarək ayda küfr edərək, hətta bir az da irəliyə gedərək Azərbaycanda guya daha çox qaçqınların, köçkünlərin pis bir vəziyyətdə olması fikrini bildirərək atılan bu xoş addımı belə qınamaqdan çəkinmirlər. Azərbaycan çoxlu sayda qaçqınların və köçkünlərin hər zaman mənafeyini müdafiə edən və daha çox onların sözünü əsrlərdir daşıyan və indi də bu məsələlərdə aktiv olan bir adam kimi bildirirəm ki, Qənirə Paşayeva bu aksiyanı millət vəkili olmaq üçün gedib Tovuzda keçirmir. Bu məmləkətin Qarabağlı köçkünləri var və s. kimi yazanlar bilsinlər ki, Qarabağ camaatının içərisində daim olan bir insan kimi deyirəm ki, həmin bölgənin insanları elə Qənirə Paşayevanı özlərinin, Qarabağın millət vəkili sayırlar. Onun həyata keçirdiyi bu aksiya insanlığın və müsəlman dünyasının bir vəkilinin atacağı addımdır ki, bunu edib. Hətta Qənirə xanımın bu aksiyasından, xüsusilə sosial şəbəkələrdə, xəbər saytlarında yayılan foto şəkillərə baxan insanlar Allaha etdikləri şükürün az olduğunun fərqində olublar. Belə bir nəcib aksiyanı qara yaxanlara üz tuturam ki, Allahla qul arasında olan bazarlığa girməsinlər, iflas olarlar. İflasa uğrayanlarda islami heysiyyat baxımından özlərini bitirmiş olurlar. Allahın sevdiyi əməllərə imza atanlara dayaq dura bilirlərsə dursunlar, yox əgər durmurlarsa, nalayiq əməllərə imza atmasınlar".

C.Əzimbəyli qeyd edib ki, bu kimi məsələlərdə insanlar məmləkəti, xalqın adına sevinməli və bundan qürur hissi keçirməlidir: "Çünki Qənirə xanımın bu aksiyası insanlıq adına görülən bir işdir. Ac və susuz körpələrlə 2 həftə bir arada olmaq, onlara dəstək vermək özü bir ibadətdir. Bu ibadət xalqımızın adına qürurverici əməldir. Bir məqamı da qeyd edim ki, Qənirə xanım Somaliyə səfər etməmişdən öncə iki fiziki qüsurlu uşağa dəstək verməsi hər bir azərbaycanlını sevindirmişdi və bu böyük təqdirəlayiq hal kimi mətbuatda qeyd edilmişdi".

**BƏXTİYAR**

# Lüğətlərlə bağlı vahid portal yaradıla bilər

Azərbaycanda lüğətlərin yerləşdiriləcəyi vahid portalın yaradılması gözlənilir. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) mətbuat xidmətindən verilən məlumata görə, bu təklif Prezident İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" bu il imzaladığı sərəncamın icrasını həyata keçirmək məqsədilə yaradılan AMEA-nın işçi qrupunun çərşənbə günü keçirilən iclasında təsdiqlənib. İşçi qrupunun rəhbəri Kamal Abdulla AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun bu məsələ ilə bağlı təklifini qəbul edərək vurğulayıb ki, müxtəlif lüğətlərin vahid portalda yerləşdirilməsi cəmiyyət tərəfindən onların istifadəsinin asanlaşdırılmasına səbəb olacaq. K.Abdulla qeyd edib ki, portalda həmçinin Azərbaycan alimlərinin elmi işlərinin yerləşdirilməsi də məqsədəuyğun olar.

İşçi qrupu bu gün sonuncu iclasını keçirərək, ötən dövr ərzində toplanan təklifləri ümumiləşdirərək Dövlət Proqramını mütəxəssislərə təqdim etmək üçün hazırlayıb.

Dövlət Proqramında dövlət dilinin elm və təhsil müəssisələrində tətbiqinin hüquqi təminatı, elmi müəssisələrdə, həmçinin təhsil sahəsində dövlət dilinin fəaliyyəti, tətbiqi və inkişaf etdirilməsi, dövlət dili ilə bağlı kadr hazırlığı, Azərbaycan dili idarəçilikdə, beynəlxalq aləmdə, küçə və reklamların dili, Azərbaycan dili KİV-də, informasiya texnologiyalarında və başqa məsələlər yer alıb.

Qeyd edək ki, Prezident İlham Əliyev mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalayıb.

**S.QARAYEVA**

# Rusiya baş nazirinin müavini Madonnanı təhqir etdi

Rusiya baş nazirinin müavini Dmitri Roqozin Moskvada konsert proqramı ilə çıxış edən amerikalı məşhur pop ulduzu Madonnanı təhqir edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, Dmitri Roqozin "Twitter" sosial şəbəkəsindəki bloqunda Maddonanın Moskvada "Xilasedici İsa Kilsəsi"ni təhqir etdiklərinə görə həbs olunan "Pussy Riot" qrupunun üzvləri haqqında dediyi ifadəyə münasibət bildirib: "Hər vaxtı ötmüş fahişə hamıya mənəviyyat haqqında mühazirə oxumağa çalışır. Əsasən də onlar bunu turne və qastrollar zamanı edirlər".

Qeyd edək ki, Madonna Rusiya paytaxtının "Olimpiski" sarayında konsert proqramı ilə çıxış edib. Məşhur pop ulduz çıxışı zamanı üzərinə "Pussy Riot" yazılan maska geyinib və həbsdə olan qrup üzvləri haqqında 10 dəqiqəlik çıxış edib. Madonna çıxışında bildirib ki, "Bu qızlar cəsur hərəkət ediblər. Nadya, Katya və Maşa — sizin azadlığınız üçün dua edirəm".

"Pussy Riot" rok qrupunun üzvləri Nadejda Tolokonnikova, Mariya Alyoxina və Yekaterina Samutseviç bu ilin fevral ayında həbs olunublar. Onlar "Xilasedici İsa Kilsəsində" çəkdiyi videoçarxı internetdə paylaşıblar. Həmin videoçarxda qrup üzvlərinin maska geyinərək kilsədə mahnı ifa etdikləri nümayiş olunub. Moskvanın Xomoniki rayon Məhkəməsində keçirilən prosesdə prokuror xuliqanlıqda ittiham olunan qrup üzvlərinin hər birinin 3 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

## Qala-Şüvəlan-Pirallahı avtomobil yolunun tikintisi davam edir

Yenidən qurulması nəzərdə tutulan Qala-Şüvəlan-Pirallahı yolunun ümumi uzunluğu 22,7 eni ayrıcı zolaqla birlikdə 28 metr təşkil edəcək. "Azəryolservis" ASC-dən verilən məlumata görə, yolun ilk 6,9 km-lik hissəsi 6 hərəkət zolaqlı (3 gediş-3 gəliş), 15,8 km-lik hissəsi isə 4 zolaqdan (2 gediş-2 gəliş) ibarət olacaq. Layihə üzrə müxtəlif sahələrdə yol qovşaqlarının tikintisi planlaşdırılır.

Tikintisinə 2012-ci ilin iyul ayından başlanılan yolda hazırda tikinti altına düşən maneələrin araşdırılması və torpaq-qazma işləri həyata keçirilir.

**BƏXTİYAR**

## Ermənistanda həlak olmuş əsgərlərin valideynləri aksiya keçiriblər

Ermənistanda atəşkəs dövründə ön cəbhədə və xidmət etdiyi arxa cəbhədəki hərbi hissələrdə həlak olmuş əsgərlərin valideynləri İrəvanda hökumət binası önündə aksiya keçiriblər. Bu barədə APA "Hayinfo" portalına istinadən məlumat verib. Övladlarını itirmiş valideynlər baş nazirlə görüşmək üçün hökumət binasına daxil olmaq istəyiblər. Lakin polisin onlara mane olması valideynlərlə polis arasında qarşıdurma ilə nəticələnib.

Əllərində övladlarının portretlərini tutmuş valideynlər binanın qarşısında aksiyanı davam etdiriblər. Onlar erməni KİV-lərinə verdikləri açıqlamalarda aksiyanı davamlı şəkildə keçirəcəklərini söyləyiblər.

# *Əhməd Oruc:* "Vahid namizəd olmaq iddiaları anormal təfəkkürün məhsuludur"

## "SURƏT HÜSEYNOVUN QABAĞINDA DURUŞ GƏTİRƏ BİLMƏYƏN İSA QƏMBƏR, ƏLİ KƏRİMLİ, PƏNAH HÜSEYNİN YENİDƏN ÖLKƏ İDARƏÇİLİYİNDƏ İŞTİRAKA İDDİA ETMƏSİ AZƏRBAYCAN CƏMİYYƏTİNİN YADDAŞININ ZƏİFLİYİNƏ HESABLANIB "

"Müxalifət çoxspektrli olduğuna görə, bu düşərgənin vahid namizədinin olması mümkün deyil". Bu açıqlamanı APA-ya Demokrat Cəmiyyət Uğrunda Müqavimət Hərəkatının İdarə Heyətinin üzvü, Azadlıq Partiyasının sədri Əhməd Oruc verib. Partiya sədri deyib ki, bu gün Azərbaycan müxalifətində kommunist, sosialist, İslam, millətçi, demokrat və liberal cərəyanların daşıyıcıları var və bunların eyni ideya ətrafında birləşməsi mümkün deyil: "Bu fərqli qüvvələri yalnız konkret şəxsə qarşı yönəlmiş maraq birləşdirə bilər ki, bu cür birləşməni isə doğru saymıram. Yalnız milli demokratik qüvvələr vahid namizədi müəyyənləşdirərək seçkiyə gedə bilərlər. Bir çox ölkələrdə bir ideya daşıyıcıları olan partiyaların vahid komandası mövcuddur. Seçkilərdə də bu komanda öz arasından namizəd müəyyənləşdirərək, irəli çəkir. Bizdə isə tamamilə fərqli yanaşma mövcuddur. Müsavat Partiyasının funksionerləri öz sədrlərini güclü hesab edərək, İsa Qəmbərin namizəd olmasını israrla irəli sürür. Digəri deyir ki, ən çox həbs olunan bizim partiya üzvləridir, ona görə, bizim sədr namizəd olmalıdır. Başqa biri xaricdə tanışlarının çox olduğunu əsas gətirərək, namizəd olmaq istədiyini söyləyir. Bunlar hamısı anormal təfəkkürdən irəli gələn yanaşmalardır".



Ə. Oruc əlavə edib ki, Müsavat Partiyasının başqanı İsa Qəmbər, AXCP sədri Əli Kərimli və İctimai Palatanın Koordinasiya Şurasının üzvü Pənah Hüseyn sabiq prezident Əbülfəz Elçibəyin komandasında rəhbərlikdə təmsil olunublar: "Bu şəxslər Sürət Hüseynovun qarşısında duruş gətirə bilməyiblər. Belələrinin təkəbbürlə yenidən ölkə idarəçiliyində iştiraka iddia etməsi Azərbaycan cəmiyyətinin yaddaşının zəifliyinə hesablanıb. Guya onlar yenidən hakimiyyətə gəlsələr nə edəcəklər? Əlbəttə milli demokratik düşərgə bir araya gəlməlidir, seçki qanununda dəyişikliklərlə bağlı fəaliyyət göstərməlidir, gərginlik aradan qaldırılmalıdır. Biz bir arada olandan sonra nəyi isə razılaşdırmaq olar. Yoxsa 20 ildir müxalifətçilik etmiş, bütün məsələlərdə qaranlıq mövqe tutmuş, ən kritik məqamlarda ya aradan çıxmış, ya hakimiyyətlə iş birliyində olan, 10 il parlamentdə iqtidara yalançı müxalifətçilik etmiş adamları yenidən müxalifətin lideri kimi sırımaq istəyirlərsə, bununla necə razılaşa bilərik? Bu, absurddur və mümkün olmayacaq".

# *Əli Əhmədov:* "İctimai maraq doğuran məsələlər ətrafında müzakirələr aparmağa hazırıq"

"Siyasi müxalifətlə dialoq demək olar ki, mütəmadi şəkildə davam etməkdədir. Eyni zamanda, şəxsən mən özüm dialoqu təkcə müxtəlif tərəflərin bir stolun ətrafında oturub bir-biri ilə deyişməsi kimi başa düşmürəm".Bunu millət vəkili, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi və sədr müavini Əli Əhmədov dilə gətirib. Onun dediyinə görə, mətbuat vasitəsilə, eləcə də, digər kütləvi informasiya vasitələrinin verdiyi imkanlar çərçivəsində Azərbaycanın müxtəlif siyasi partiyaları öz fikirlərini daim cəmiyyətə çatdırırlar:

" Biz də eyni zamanda, buna dialoq kimi baxırıq. Bunun özü də dialoqun bir formasıdır. Konkret məsələlərlə əlaqədar isə, əgər ehtiyac yaranacaqsa, biz dəfələrlə öz mövqeyimizi ortaya qoymuşuq, biz Azərbaycanın istənilən siyasi partiyası ilə bu və ya digər ictimai maraq doğuran, milli marağa uyğun məsələlər ətrafında müzakirələr aparmağa həmişə hazırıq. Biz bunu dəfələrlə bəyan etmişik".

**KAMİL**

# Azərbaycanda Türkiyə Quru Qoşunları Ali Hərbi Məktəbinə qəbul elan olunub

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları Ali Hərbi Məktəbinə kursant qəbulu elan edib. Komissiyanın mətbuat xidmətindən verilən məlumata görə, məktəbdə təhsil 4 il, əyani və türk dilində olacaq. Məktəbə qəbul olan kursantlar təhsil müddətində pulsuz yemək, geyim forması və yataqxana, eləcə də xərclik ilə təmin olunurlar. Müsabiqədə TQDK tərəfindən Azərbaycan və rus bölmələrində bütün qruplar üzrə test üsulu ilə keçirilən qəbul imtahanında 250 və daha yüksək bal toplamış namizədlər iştirak edə bilərlər. Onlar 16-20 yaşlı, Azərbaycan vətəndaşları (yalnız oğlanlar) olmalıdırlar. Müsabiqə nəticəsində seçilmiş 50 nəfər namizəd Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi həkim komissiyasından keçdikdən sonra Daxili Qoşunların Baş İdarəsində fiziki hazırlıq üzrə yoxlamalara cəlb olunurlar. Fiziki hazırlıq üzrə yoxlamalardan keçmiş 30 nəfər namizəd Türkiyənin Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı Hərbi Attaşeliyi və Hərbi işbirliyi üzrə Koordinasiya Qərargahı tərəfindən keçiriləcək müsahibədə iştirak edirlər. Fiziki hazırlıq üzrə yoxlamaların və müsahibənin nəticələri bəlli olduqdan sonra ən uğurlu göstəricilər əldə etmiş 10 nəfər namizəd Türkiyənin Silahlı Qüvvələrinin Quru Qoşunları Ali Hərbi Məktəbinə təhsil almağa göndəriləcək. Məktəbi müvəffəqiyyətlə bitirmiş şəxslər Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müvafiq vəzifələrə təyin olunacaq və yaşayış yeri ilə təmin ediləcəklər.

**S.QARAYEVA**

# Yaponiyada keçirilən tədbirdə "Azərsu" təmsil olunub

24-27 iyul tarixlərində Yaponiyanın Kobe şəhərində Beynəlxalq Standartlaşma Təşkilatı "Su sektorunda Qlobal Çağırışlar-İSO standartları necə kömək edə bilər" mövzusunda seminar keçirib. "Azərsu" ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə sutəmizləmə prosesləri, tullantı və yağış sularının idarə olunması mövzularında məruzələr dinlənilib. Seminar çərçivəsində keçirilmiş dəyirmi masalarda şəhər yerlərində tullantı sularının təmizləndikdən sonra istifadəsində müasir metodların tətbiqi barədə məlumatlar verilib, su itkilərinə qarşı mübarizə, tullantı sularında əmələ gələn lilin səmərəli istifadəsi mövzularında müzakirələr aparılıb. Bununla yanaşı çirkab suların təmizləndikdən sonra irriqasiya məqsədləri üçün istifadə olunması, eləcə də biokütlənin idarə olunması sahəsində tətbiq edilən yeni texnologiyalar barədə ətraflı məlumat verilib.

Seminarda iştirakçılar tərəfindən səmərələşdirici təkliflər irəli sürülüb, "Su sektorunda Qlobal Çağırışlar" üzrə yeni prioritetlər müəyyən edilib. 30 ölkənin nümayəndələrinin qatıldığı tədbirdə "Azərsu" ASC-nin Elm və texnika şöbəsinin rəis müavini Elçin Camalov iştirak edib.

**BƏXTİYAR**

# "Azəriqaz" İB-nin abonentlərinin sayı 1423758-ə çatıb

Dövlət Neft Şirkəti "Azəriqaz" İstehsalat Birliyinin əsas vəzifələrindən biri də istehlakçıların fasiləsiz və keyfiyyətli təbii qazla təchiz edilməsidir. "Azəriqaz"dan verilən məlumata görə, bu istiqamətdə görülən işlərin nəticəsi olaraq, avqustun 1-ə ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 1423758-ə (1406236 əhali, 17522 qeyri-əhali abonenti) çatıb. Bu abonentlərin 641472-si Bakı şəhəri (632115 əhali, 9357 qeyri-əhali abonenti), 782286-sı isə regionların payına düşür (774121 əhali, 8165 qeyri-əhali).

Ümumilikdə 1422420 abonent qaz sayğacı ilə təmin olunubu ki, bu rəqəmin də 1404898-i əhali (99,9 faiz), 17522-i qeyri-əhali (100 faiz) istehlakçılarıdır. Sayğaclaşdırmanın nisbətinə gəlincə, bu sahədə vəziyyət aşağıdakı kimidir: Bakı şəhəri üzrə 631425 əhali abonenti (99,9 faiz), 9357 qeyri-əhali abonenti (100 faiz), regionlar üzrə isə 773473 əhali abonenti (99,9 faiz) və 8165 qeyri-əhali abonenti (100 faiz). Ümumilikdə Bakı şəhəri üzrə 640782 abonent (99,9 faiz), regionlar üzrə isə 781638 abonent (99,9 faiz) qaz sayğacı ilə təmin olunub.

Qeyd edək ki, əhali abonentlərinin mənzillərində 420 min "smart-kart" tipli GULF və İTRON sayğacları quraşdırılıb.

**BƏXTİYAR**

# Ekoloji hüquqpozmalarla bağlı araşdırma aparılıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları tərəfindən iyulun 15-31-də ölkə ərazisində ekoloji qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə araşdırma aparılıb. Nazirlikdən verilən məlumata görə, araşdırma zamanı hüquqi və fiziki şəxslər tərəfindən su və torpaq ehtiyatlarının, atmosfer havasının, yerin təkinin, fauna və floranın mühafizəsi, o cümlədən ətraf mühitə qanunsuz məişət və istehsalat tullantılarının yerləşdirilməsi sahəsində yol verilmiş qanun pozuntularına görə 135 akt və protokol tərtib olunub, nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 54 müddətli məcburi göstəriş verilib.

Ümumilikdə, 29 iş üzrə 73600 manat məbləğində cərimə tətbiq olunub, ətraf mühitə dəymiş ziyana görə 27 iş üzrə 382020.27 manat məbləğində iddia qaldırılıb, ətraf mühitə tullantıların atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə 163 iş üzrə 38602.63 manat məbləğində ödəmə tətbiq edilib. Tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına 7, məhkəməyə 1, icra qurumlarına isə 20 iş göndərilib.

**BƏXTİYAR**

# Artıq "ALBALI" kartları üzrə hesab.az portalında ödəmələri hissə-hissə aparmaq olar

"Unibank" bu gündən etibarən Hesab.az ödəmələr portalı ilə birgə aksiyasına start verdi. Artıq Bankın "Albalı" taksit kartları bu ödəmə portalında qəbul olunur və onlarla kommunal, telefon, İnternet, kabel televiziya və digər xidmətlər üzrə ödəmələri hissə-hissə aparmağa imkan verir.

Aksiya çərçivəsində "Albalı" taksit kartları üzrə müştərilərə xüsusi olaraq 5 qat bonuslar təqdim edilir. Bu zaman onların Hesab.az portalında hədiyyə və mükafat qazanmaq şansları da 5 qat artır. "Unibank"-ın digər kartları üzrə Hesab.az tərəfindən təqdim edilən bonuslar adi kartlardan fərqli olaraq 3 dəfə çoxdur.

"Albalı" kartları xüsusi olaraq nağdsız ödənişlər üçün buraxılır və sahiblərinə məbləği 3 min AZN-dək, müddəti isə üç ilədək kredit xəttlərinin cəlb olunmasını təmin edir. Bu zaman alınan malların ödənilməsi hissə-hissə aparılır və hər növbəti ayın 1-dən 10-dək həyata keçirilir. Qeyd edək ki, bu növ taksit kartlarının "Unibank"-da sifarişi üçün zamin tələb olunmur.

Xatırladaq ki, Hesab.az portalının bütün xidmətləri on-layn rejimində həyata keçirilir və pulsuzdur. Ödəmələr bu zaman mobil telefonlar vasitəsi ilə də aparıla bilər (m.hesab.az). Tranzaksiyaların təhlükəsizliyi tanınmış "Visa" və "MasterCard" beynəlxalq ödəniş sistemlərinin nəzarəti altında təmin olunur (VeriSign SSL-şifrələnmə əsasında).Hal-hazırda ödəmə portalının istifadəçilərinin sayı 20 minə yaxındır.




"Albalı" kartlarının sifarişi və Bankın Hesab.az-la birgə aksiyası barədə ətraflı məlumatı 117 telefon nömrəsi üzrə əldə etmək olar.

# Elnur Aslanov: “Ermənistan iqtisadiyyatı uzun illər tənəzzül vəziyyətində qalacaq”

**Müsahibimiz Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanovdur.**



***— Elnur müəllim, Cənubi Qafqaz obyektiv olaraq dünyanın ən mürəkkəb regionlarından biri hesab olunur. Xarici oyunçuların çoxsaylı maraqları daxili və dövlətlərarası münaqişələrlə fəal şəkildə bir-birinə qarışır. Bu faktı regionun bir spesifikası kimi qeyd edərək, bilmək istərdik — ümumi vəziyyət necədir? Regionda inkişafa hansı proseslər təsir göstərir?***

— Əgər Cənubi Qafqazda hazırkı vəziyyəti təhlil etsək, ilk olaraq nəzərə çarpan cəmiyyətin siyasi sisteminin siyasi proseslər üçün müvafiq iqtisadi təminat olmadan normal fəaliyyət göstərə bilməməsidir. Bizim enerji siyasətimiz, çəkilən neft və qaz kəmərləri böyük iqtisadi dəstək göstərərək mənfəətdən infrastruktur və sosial problemlərin həlli ilə yanaşı, iqtisadiyyatın digər sektorların inkişafı üçün də istifadə imkanı verdi. Məsələn, cari ilin altı ayının yekunu üzrə iqtisadiyyatın neft sektorunun 11 faizdən artıq artım göstəricisi Azərbaycanı dünya miqyasında bu göstərici üzrə lider ölkələr siyahısının zirvəsinə qaldırdı. Bu anlayış stabilləşdirilmə mərhələsindən keyfiyyətcə yeni vəziyyətə — inkişaf səviyyəsinə keçən Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, Azərbaycan cəmiyyətin siyasi və iqtisadi sisteminin qarşılıqlı əlaqələr və qarşılıqlı asılılığından səmərəli şəkildə istifadə etmək sayəsində regional lider səviyyəsinə qalxıb. Və hazırda təbii yox, insan kapitalı Azərbaycanın iqtisadi və sosial inkişafını müəyyən edən amilə çevrilib. Bu gün bizim enerji siyasətimiz təkcə regionun deyil, eləcə də qitənin yeni iqtisadi xəritəsini müəyyən edir. Son 8 il ərzində Azərbaycan iqtisadiyyatı üç dəfə artıb. Ölkə prezidenti tərəfindən elə bir inkişaf strategiyası müəyyən edilib ki, onun nəticəsində növbəti 10 il ərzində, 2023-cü ilədək biz iqtisadiyyatın növbəti — ikiqat artımının şahidi olacağıq. Azərbaycan bu strategiyanın reallaşdırılması nəticəsində dünya miqyasında yüksək gəlirli ölkəyə çevriləcək. Bu isə artıq postindustrial inkişaf mərhələsinə keçid deməkdir. Lakin Azərbaycan haqqında uğurlu dövlət inkişafı nümunəsi kimi danışarkən qonşuluqdakı tamamilə əks fenomen olan Ermənistana da toxunmaq lazımdır. Ümumilikdə orada inkişafın ümumi tonu idealdan çox uzaqdır. Gözlənildiyi kimi bu ilin 6 may tarixində Ermənistanda keçirilən seçkilərdən sonra cəmiyyəti narahat edən əsas problemlər hələ də gündəlikdə qalmaqdadır. Ermənistanın gələcəyi ilə bağlı mövcud qeyri-müəyyənlik isə daha da gücləndi. İrəvanın öz fəaliyyət proqramı ilə, daha dəqiq desək isə onun olmaması ilə dövlətin qarşısında duran problemləri həll etmək iqtidarında olmadığını sezmək o qədər də çətin deyil. Ölkə əhalisi şübhəsiz ki, iqtisadi sabitlik, rifahın yüksəlməsi, sahibkarlıq fəaliyyəti üçün optimal mühit, vətəndaşların sosial təhlükəsizliyini təmin edən siyasi hakimiyyəti dəstəkləmək istəyir. Bu istənilən digər dövlətin iqtisadi siyasətinin hazırlanması və reallaşdırılması normasıdır. Lakin biz özünəməxsus tərzə şahidlik edirik — bütün məntiqi kanonların əksinə olaraq Ermənistan hökuməti iki mənfi amilin arasından hakimiyyətdə qalmaq xatirinə daha pisini seçir.

***— Ermənistanın regional siyasətin reallaşdırılması fonunda onun siyasi və iqtisadi inkişaf perspektivləri hansı səviyyədədir?***

— Ümid edirəm ki, Ermənistanın siyasi rejimi tam olaraq özünə hesabat verir ki, erməni-Azərbaycan münaqişəsi Azərbaycan ərazilərinin qəsb edilməsi cəhdlərinin nəticəsi kimi regionun təhlükəsizliyi üçün böyük təhdid olaraq Cənubi Qafqazın ümumi iqtisadi inkişafını ləngidir. Lakin İrəvanın danışıqlar prosesini yubatmaq cəhdləri ilə status-kvonun saxlanılması siyasəti yürüdür. Bu şəkildə də aydındır ki, ATƏT-in Minsk qrupu çərçivəsində irəliləyiş gözləntisi yaxşı heç nə vəd etmir. Bəli, biz ATƏT-in baza prinsipləri, öhdəlikləri və müddəaları əsasında münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar üçün daimi platformaya malikik. Lakin tərəflərin danışıqları gözlənilən nəticəni vermir. Eyni zamanda həmsədrlər həqiqətən daima münaqişə tərəfləri ilə əlaqədədirlər və müntəzəm olaraq regiona səfər edirlər. Lakin vəziyyət dəyişmir — Ermənistan silahlı qüvvələrinin qanunsuz olaraq Azərbaycan ərazilərində iştirakının artması səbəbindən vəziyyət gərgin olaraq qalır. Azərbaycan artıq bir neçə dəfə sülh müqaviləsi üzərində işlərə başlamağı təklif edib, lakin İrəvan bu sənəd barəsində eşitmək belə istəmir və bunun üçün bir çox bəndlər üzrə razılığın olmamasını bəhanə gətirir. İrəvanın bu destruktiv mövqeyi regionun hər hansı bir müsbət inkişaf perspektivini əsaslı olaraq çətinləşdirməklə yanaşı, hazırkı erməni cəmiyyətinin daxili ehtiyatlarını heçə endirir. Ermənistanda iqtisadi vəziyyət pisləşməkdədir, mühacir ordusu artmaqdadır, bağlanan kiçik və orta biznes obyektlərinin sayı artır. İrəvan politoloqlarından biri bu yaxınlarda ürək yanğısı ilə bildirib ki, “ümidsizlik insanlar üçün dominanta çevrilir”. Əhalinin adambaşına düşən ümum daxili məhsulun səviyyəsinin bu dərəcədə aşağı olduğu, idxalın dar struktura malik ixracatdan az qala dörd dəfə çox olduğu, yüksək işsizlik bir tərəfə, əhalinin üçdən birinin yoxsulluq səviyyəsində yaşadığı belə bir iqtisadiyyatı qiymətləndirmək çox çətindir. Erməni ekspertlərin hesablamalarına görə, bu gün Ermənistanın ümumi xarici borcunun ölkənin nominal ÜDM-ə faiz nisbəti 72 faizə bərabərdir. Ermənistan iqtisadiyyatının borcları vaxtında ödəmək üzrə qabiliyyətinin şübhə doğurduğunu nəzərə alaraq, tamamilə aydındır ki, tezliklə vəziyyət kritik həddə çatacaq. Nəticə olaraq, Ermənistan uzun illər, bəlkə də onilliklər ərzində tənəzzülə uğramış, rəqabət qabiliyyətini itirmiş iqtisadiyyat olaraq qalacaq.

***— Buna baxmayaraq, Ermənistan rəhbərliyi tez-tez regional kimi təqdim etməyə çalışdığı müxtəlif layihələrlə çıxış edir...***

— Son bir neçə ildə regional miqyaslı heç bir proqram həyata keçirilməyib, Ermənistan-İran dəmir yolunun çəkilməsi proqramı, şimal-cənub avtomobil yolu, ümumerməni bankı və ya Gümrü texnoparkı kimi layihələr haqqında yalnız danışılıb. Ermənistanda iqtisadi inkişafın təbii mexanizmlərindən biri olan kapital bazarının inkişafı dayanıb, inhisarçılıq, texnoloji gerilik və ÜDM-in dörddə üçünü ötmüş ümumi xarici borcu da bura əlavə edin. Yalnız Suriyada vəziyyətin vətəndaş müharibəsi anlayışlarınadək gərginləşməsi və humanitar fəlakətin yaranması, suriyalı ermənilərdən olan qaçqınların hesabına Ermənistanda demoqrafiyanın belə desək, bir qədər “yaxşılaşmasını” təmin etdi.

***— Suriyadan insanların Ermənistana köçürülməsi və onların Ermənistandakı vəziyyətinə dair hər hansı bir rəqəmlər var?***

— Ermənistanın rəsmi şəxslərinin məlumatlarına görə, bu ilin ilk yeddi ayı ərzində Suriyanın erməni milliyyətli üç min vətəndaşı bu ölkəyə gəlmək üçün giriş vizası alıblar, eyni zamanda 800 suriyalı erməni ailəsi Ermənistanda 800 daşınmaz əmlak əldə ediblər. Lakin bəzi məqamlar ölkənin demoqrafiyasının dəyişməsinin nəticəsi olaraq, erməni cəmiyyətində gərginliyin yeni məqamlarının formalaşdığından xəbər verir — diaspora qısqanclıqla yanaşan yerli əhali pis yaşayır. Onsuz da aciz qalmış xalqın fonunda daha üstün vəziyyətə malik varlı diaspor ermənilərinə qarşı belə davranışa görə erməni cəmiyyətinin sosial-iqtisadi vəziyyətinin potensial münaqişəliliyi artır — bir növ “özününkülər arasında özgə” fenomeni. İşğal olunmuş ərazilərdə demoqrafik vəziyyəti dəyişdirmək imkanlarına əlavə kimi bu amili nəzərə alaraq, siyasi İrəvanın kuluarlarında Suriyadan olan qaçqınların Azərbaycanın ərazilərinə, Qarabağa köçürülməsi barədə söhbətlər gəzir. Bu bir daha nümayiş etdirir ki, Ermənistan status-kvoda maraqlıdır və Xankəndidəki marionet qrupu məhz İrəvan idarə edir. Digər tərəfdən, suriyalı ermənilər yaxşı başa düşürlər ki, İrəvanın onlar üçün bir növ süni getto yaratmaq üçün çalışdığı, lakin yaxın gələcəkdə Azərbaycanın yurisdiksiyası altına qayıdacaq tamamilə özgə torpaqda yaşamaq tamamilə ağılsız bir ideyadır. 2013-cü ildə, İrəvanda prezident kürsüsü uğrunda siyasi mübarizənin qızğın vaxtlarında əhalinin laxlayan sosial-iqtisadi vəziyyəti fonunda hazırkı idarəetmə sisteminin yeni siyasi dəyişikliklərə gətirəcəyi tamamilə mümkündür. Bu ya tam parçalanma və tale ilə barışmaq apatiyası, ya da təkcə İrəvan deyil, həm də ölkənin bütün əyalətlərinin sosial narazılığının kulminasiyasının birləşmiş “doqquzuncu dalğası” olacaq.

***— Bu kontekstdə Azərbaycan nə təklif edir?***

— Hələ vaxt var — Ermənistan vətəndaşları və bu gün Qarabağda yaşayanlar anlamalıdırlar ki, İrəvandakı hakim rejim sadəcə gənc nəslin gələcəyini oğurlayır. Artıq bu gün demək olar ki, onların ölkəsi iflasa uğrayıb. Ermənistandakı sosial-iqtisadi böhran və onun nəticələri yalnız sülh, sabitlik və təhlükəsizlik şəraitində aradan qaldırıla bilər. Məhz buna görə də, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmaması və İrəvanın bu münaqişənin dinc yolla nizamlanması üzrə danışıqlar prosesini süni şəkildə uzatması regional inkişafı əngəlləyir və eyni zamanda elə Ermənistanın özünün də inkişafını iflic edir. Azərbaycan tərəfi daim konstruktiv dialoq və münaqişənin dinc yolla həllinə can atıb və Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi üzrə danışıqları davam etdirmək niyyətindədir. İşğal olunmuş ərazilərin azad olunmasından sonra Dağlıq Qarabağın hüquqi statusu hazırlanacaq və ilk növbədə diqqət Avropanın analoji təcrübəsinə yönəldiləcək.

Məsələn, regionun hüquqi statusuna dair variant kimi Cənubi Tirolun təcrübəsini götürmək mümkündür ki, Azərbaycan Prezidenti İlham Əliyev də bu barədə danışıb. Bu kontekstdən çıxış edərək, gələcəkdə Azərbaycan və erməni icmalarının dinc, birgə yaşayışı, regionun iqtisadi, sosial, mədəni inkişafının mexanizmləri hazırlana bilər.

**Kamil HƏMZƏOĞLU**

# Musa Qasımlı: “Həmsədrlər ermənilərin Qarabağda qanunsuz yerləşdirilməsinə qəti münasibət bildirməlidirlər”



“Azərbaycan hələ bir neçə il əvvəl işğal olunmuş torpaqlarda qanunsuz məskunlaşma ilə bağlı məsələ qaldırıb. Bundan sonra BMT-nin faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlara səfər etdi, qanunsuz məskunlaşma yerləri və onların sayı barədə hesabat hazırladı. Bu sənədlər qanunsuz məskunlaşmanın yolverilməz olmasına dair çağırış idi. Lakin Ermənistan bu çağırışa məhəl qoymadı”. Bu açıqlamanı millət vəkili Musa Qasımlı Ermənistanın Suriya və Livandan qaçan ermənilərin Azərbaycanın işğal olunmuş torpaqlarına yerləşdirmək cəhdlərinə münasibət bildirərkən deyib. Onun sözlərinə görə, ermənilərin Qafqaz ərazilərinə məskunlaşdırılması prosesi ilk dəfə deyil ki, baş verir: “Əgər çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalı zamanı bu regionda 300 min erməni yaşayırdısa, 1914-cü ilədək onların sayı 1,3 mln. nəfərə çatdı. Birinci Dünya Müharibəsi zamanı Cənubi Qafqaza 250-260 min erməni köçürülüb. 1922-1923-cü illərdə keçirilən Lozanna konfransından sonra isə Sovet İttifaqının mövcudluğu dövründə Cənubi Qafqaz regionuna ermənilərin köçürülməsi prosesi davam etdirilib. Sovet İttifaqı dövründə, xüsusilə də, İkinci Dünya müharibəsinin sonlarında ermənilərin Avropadan Cənubi Qafqaza köçürülməsi ilə məşğul olan dövlət komitəsi yaradılıb. Eyni zamanda, bu ermənilərin bir hissəsi 1947-1952-ci illərdə Ermənistandan deportasiya olunan azərbaycanlıların evlərinə yerləşdirildi. Belə ki, 1986-cı ilin noyabrında Ermənistan SSR-nin Kommunist Partiyasının birinci katibi Karen Dəmirçiyan SSRİ Mərkəzi Komitəsinə məktub ünvanlamışdı. O, məktubda Sovet rəhbərliyindən ermənilərin müasir Ermənistan ərazisinə köçürülməsi prosesinin 1990-cı ilin sonunadək uzadılmasını xahiş etmişdi”.

Millət vəkili deyib ki, eyni zamanda, Dəmirçiyan öz məktubunda göstərir ki, sovet dövründə Yaxın Şərqdən, xüsusilə də, İran, Suriya, Livan və digər ölkələrdən Ermənistana 250 mindən artıq erməni mənşəli şəxs köçürülüb: “Beləliklə, əgər Ermənistan əhalisi hazırda 3 milyon təşkil edirsə, onun iki milyondan çoxu bura digər ölkələrdən gəlmədir”. Ermənistanın qanunsuz məskunlaşdırmanı nə məqsədlə aparmasına gəlincə, M.Qasımlı deyib ki, məqsəd demoqrafik fəlakətin qarşısını almaq və işğal olunmuş torpaqları Ermənistanla əlaqələndirməkdir: “Ermənistanın işğal olunmuş ərazilərdə məskunlaşdırma siyasətini davam etdirməsi onun beynəlxalq hüquq normalarına riayət etmədiyini bir daha sübut edir. Hesab edirəm ki, ermənilərin Azərbaycanın işğal olunmuş torpaqlarına qanunsuz olaraq yerləşdirilməsinə öz mövqeyini ilk növbədə qəti olaraq ATƏT-in Minsk qrupunun həmsədrləri bildirməlidirlər. Bununla yanaşı, Minsk qrupunun həmsədr ölkələri, həmçinin Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərini qanunsuz olaraq məskunlaşdırmasının Qarabağ münaqişəsində sülhün əldə olunmasına əngəl törətməsi və gərginlik yaratması ilə bağlı bəyanatla çıxış etməlidirlər. Bundan əlavə, Minsk qrupunun həmsədr ölkələri, eyni zamanda BMT Təhlükəsizlik Şurasının üzvləri olaraq birmənalı şəkildə bəyan etməlidirlər ki, Ermənistan Azərbaycan ərazilərinin bir hissəsini işğal edən işğalçı ölkədir. Yəni Minsk qrupunun həmsədr ölkələri işğalçı və işğala məruz qalan dövlətlərə eyni yanaşmağa son qoymalıdır”.

Suriya və Livan ermənilərinin qanunsuz olaraq Dağlıq Qarabağa yerləşdirilməsinin qarşısını almaq üçün Azərbaycanın hansı addımlar ata bilməsinə də toxunan millət vəkili deyib ki, Azərbaycanın bu baxımdan siyasi-diplomatik mexanizmləri var: “Rəsmi Bakı bu məsələni BMT Təhlükəsizlik Şurası, ATƏT, ATƏT-in Minsk qrupunun həmsədrləri və digər beynəlxalq təşkilatlar qarşısında qaldıra bilər”. Onun fikrincə, Ermənistan bu addımlarla ölkədə demoqrafik fəlakətin qarşısını ala bilməyəcək. M.Qasımlı deyib ki, bu və ya digər xalqın demoqrafik inkişafı ilk növbədə bir sıra amillərlə yanaşı, sosial-iqtisadi inkişaf ilə əlaqədardır: “Ermənistanda demoqrafik böhran ölkədə məhz sosial-iqtisadi vəziyyətin ağır olmasının nəticəsidir. Bildiyiniz kimi, Ermənistan əhalisi sosial-iqtisadi vəziyyətin ağır olması üzündən kütləvi qaydada ölkəni tərk edir. Ona görə, Ermənistan demoqrafik fəlakətdən yaxa qurtara bilməyəcək”.

**PƏRVANƏ**

# YAP rəsmisi: “Baş verən hadisələr sabitliyin nə qədər böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyir”



“Suriyada baş verən hadisələr bütün dünyanın diqqət mərkəzindədir, çünki bu bölgədə döyüşlər, qarşıdurmalar daha geniş xarakter alıb. Həm hökumət qoşunları, həm də müxalifətin silahlı birləşmələri döyüşlərdə heç nəyə fikir vermədən, böyük dağıntılar, insan qırğınları törədirlər ki, bütün bunlar dünyadakı mövcud qayda-qanunlar, humanizm baxımından yaxşı hadisələr deyil, əksinə pis nümunələr yaradır”. Bu fikirləri mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, bu hadisələr bütövlükdə bölgə üçün böyük təhlükə mənbəyinə çevrilib. Millət vəkilinin sözlərinə görə, Suriyaya hansısa xarici müdaxilənin olmasının bölgədə müharibəyə gətirib çıxaracağı aydın şəkildə özünü göstərir: “Ona görə də, ölkə daxilindəki qırğınların qarşısını almaq üçün BMT Təhlükəsizlik Şurasının müəyyən etdiyi mandat üzrə xüsusi nümayəndələr çalışır. Amma bu nümayəndələrin fəaliyyəti istənilən nəticəni vermir. Döyüşlər dayanmayıb, əksinə daha geniş xarakter almaqdadır. Hər iki tərəf ağır texnikadan, artilleriyadan, aviasiyadan istifadə edir. Hətta kimyəvi silahların işə düşəcəyi ehtimalı var. Bütövlükdə, bu hadisələr onu göstərir ki, dünya çapında yeni bir mərhələ başlanıb. Yəni, dünyada geopolitik mübarizə və bu mübarizədə istifadə olunan üsullar dəyişib”. Bu gün açıqdan-açığa kütləvi olaraq silahlardan istifadə edildiyini deyən M.Qurbanlının fikrincə, ərəb ölkələrində baş verən hadisələrin gedişatı göstərir ki, bütün bunların arxasında heç də demokratik dəyişikliklər, xeyirxah məqsədlər, uzun müddət hakimiyyətdə olan qüvvəni devirmək yox, sırf geopolitik maraqlar dayanır. Millət vəkilinin dediyinə görə, xüsusilə dünyanın coğrafi baxımdan, əlverişli məntəqələrinə nəzarət və bu fonda enerji yataqlarına nəzarət, bunun sayəsində isə dünya çapında hegemon ölkələrin öz maraqlarını ifadə etməsi dayanır: “Kənardan belə görünür ki, hakimiyyət uğrunda mübarizə aparan qüvvələr ölkəyə yeni bir dövr, yeni sistem gətirmək istəyirlər. Amma biz görürük ki, bu yeni sistem uğrunda mübarizə deyil. Xaricdən Suriya hakimiyyətinə qarşı qüvvələri dəstəkləyənlər doğurdan da, insan hüquqlarının pozulmasına qarşı çıxış edirlərsə, onda nə üçün işğalçılıq nəticəsində öz torpaqlarından didərgin düşmüş yüz minlərlə insanın taleyinə laqeydlik göstərirlər.

Yəni, bu proseslərdə heç də məqsəd demokratik sistemi ərəb ölkələrinə gətirmək deyil. Burada alt qatda başqa məqsədlər dayanır. Bu məqsədlər geopolitik, enerji yataqlarına nəzarət, həmçinin, dünyanın coğrafiyasında gedən mübarizədə öz sözünü deməkdir. Bir məqamı da qeyd etmək lazımdır ki, bu dağıntıları görəndə sabitliyin nə qədər böyük əhəmiyyət kəsb etdiyi bir daha təsdiqlənir. Sabitliyi qoruyub saxlamaq daha vacibdir, nəinki hansısa şüarlar altında ölkəni xaotik vəziyyətə yuvarlamaq. Bu xaos böyük faciələrə gətirib çıxarır. İraq, Liviya, Tunis və başqa ölkələr hələ də xaosdan qurtula bilməyib. Burada əvvəlki hakimiyyətlərə bəraət qazandırmaqdan söhbət getmir. Söhbət ondan gedir ki, qarşı-qarşıya dayanan qüvvələr öz maraqları naminə xalqların adından istifadə edirlər. Əslində isə, bu cür qarşıdurmalardan müəyyən xarici qüvvələr istifadə edir və vəziyyət o həddə çatdırılır ki, həmin ölkələrdə uzun illər qeyri-sabitlik hökm sürür”.

**KAMİL**

# “Terrorizmə qarşı mübarizə üçün dövlət və vətəndaş cəmiyyəti birgə fəaliyyət göstərməlidir”

“Doktrina” Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzi Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə reallaşdırdığı “Azərbaycanın terrorizmə qarşı mübarizəsində vətəndaş cəmiyyətinin dəstəyi” adlı layihə çərçivəsində təkliflər sənədi hazırlayıb.

Hüquq-mühafizə orqanlarına, həmçinin Milli Məclisə təqdim olunacaq təklifləri əks etdirən sənəddə qeyd edilir ki, Azərbaycan Respublikası terrorizmdən ən çox əziyyət çəkən ölkələrdəndir. Amma ümumilikdə, Azərbaycan cəmiyyətinin ayrı-ayrı təbəqələrində ölkənin terrorizmlə mübarizəsinin mövcud keçmişinə, durumuna və perspektivlərinə dair əsaslı məlumatlar azdır. Bu mövzunun cəmiyyətdə aktuallığını saxlamaq, ölkənin terrorizmə qarşı preventiv tədbirlərinə cəmiyyətin dəstəkverici ruhunun qaldırılması çox vacibdir. Beynəlxalq təcrübə göstərir ki, terrorizmə qarşı mübarizədə vətəndaş cəmiyyətinin, xüsusilə də QHT-lərin rolu getdikcə artır.

Sənəddə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi başlayandan Ermənistan Azərbaycan ərazisində 32 terror aktı həyata keçirdiyi, nəticədə 2000-dən çox insanın həlak olduğu, minlərlə insanın yaralandığı vurğulanıb.

Qeyd edilib ki, işğal nəticəsində yaranan nəzarətsiz zonaların terrorizmlə mübarizəni çətinləşdirdiyini və həmin nəzarətsiz zonaların insan ticarəti, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi və s. bu kimi beynəlxalq mütəşəkkil cinayət növlərinə səbəb olması fikrini təsdiqləyən Azərbaycanın 20% ərazisinin Ermənistan tərəfindən işğalı nəticəsində onun nəzarət edə bilmədiyi ərazilərdə terrorizmlə mübarizəyə dair beynəlxalq müqavilələrin müddəalarının həyata keçirməsi imkanları aradan qalxıb.

Sənəd müəllifləri hesab edir ki, beynəlxalq təcrübəyə görə, vətəndaş cəmiyyəti strukturlarının dövlətin terrorizmə qarşı mübarizəsinə bir sıra istiqamətlərdə ciddi dəstəyi ola bilər: “QHT-lərin terrorizmə qarşı mübarizə çərçivəsində araşdırmaçı, rəy yaradıcı, məsləhətçi, təlimçi, hüquq müdafiəçisi, xəbəredici, qanunyaradıcı, mühit dəyişdirici və s. rolları mövcuddur. Misal üçün, vətəndaş cəmiyyəti təmsilçiləri terrorizm hallarının aradan qaldırılmasında həm cəmiyyətə, həm də dövlət strukturlarına məsləhətçi statusunda ola bilərlər. Hüquq müdafiəçisi rolu həm hakimiyyəti terrorizmlə mübarizə sahəsində insan haqlarına yönəlik yanlış hərəkətlərdən çəkinməyə, həm də terrorun səbəb ola biləcəyi hallardan bir sıra hallarda qaçmağa səbəb ola bilər. QHT-lər araşdırmaçı olmaqla eyni zamanda xəbəredici rola da sahib ola bilərlər. Onlar bu və digər informasiyaları araşdıraraq, terrorla bağlı real, ciddi məlumatlara sahib ola bilərlər. Onlar bu məsələdə, dövlət strukturlarından daha çevik işləyə bilərlər, çünki QHT-lər sadə insanlarla işləyirlər və bu baxımdan daha çox məlumat əldə edirlər. QHT-lərin hədəflərinə aid olan rollardan biri də məhz mühit dəyişdirilməsi ilə bağlıdır. Yəni QHT-lər icmalarla işləyə bilər və bu icmaları narahat edən problemləri ortaya çıxara bilər və bu baxımdan həmin ərazidə terroru ortaya çıxaracaq problemlərin həllinə dəstək verə bilərlər. Qanunyaradıcı və qanun müəyyənedici rol da çox mühüm hesab edilir”.

Təkliflərdə qeyd edilir ki, terrorizmə qarşı vətəndaş cəmiyyətinin müqavimət hissinin qaldırılması çox vacibdir. Bu kontestdə ümummilli fəaliyyəti nəzərdə tutan xüsusi proqram işlənib hazırlanmalıdır. Ölkədə terrorizmə qarşı mübarizə siyasətinin həyata keçirilməsində həm QHT-lər, həm media, həm ayrı-ayrı insanlar, həm də insanlarla birbaşa ünsiyyətdə olan dövlət qurumlarının təmsilçiləri fəal olmalıdırlar. Bütün dövlət strukturlarının, xüsusilə də hüquq-mühafizə və xüsusi xidmət orqanlarının terrorizmə qarşı mübarizə fəaliyyəti çərçivəsində vətəndaş cəmiyyəti ilə əməkdaşlıq münasibətlərini özündə təsbit edən xüsusi qərarlar, sənədlər, qanunvericilik aktları hazırlanmalıdır və bu sahədə ABŞ-ın təcrübəsi öyrənilə bilər.

Tədris proqramına terrorizmə qarşı mübarizə üzrə mühazirələr daxil edilməli, eyni zamanda terrorizmə qarşı mübarizə sahəsinə dair bütün zəruri bilgiləri özünə daxil edən metodik vəsait hazırlanaraq ictimaiyyətə təqdim olunmalıdır.

**PƏRVANƏ**

# Millət vəkili: “Davamlı inkişaf insanların rifahının yüksəlməsində özünü göstərir”

“Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar ilin ilk yarısında ölkəmizin dinamik inkişafını daha da sürətləndirib və bütün iqtisadi sektorlarda yüksək artım əldə olunub”.Bunu mətbuata açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib.

E.İbrahimovun bildirdiyinə görə, həyata keçirilən iqtisadi strategiya ölkə iqtisadiyyatının davamlı artımını təmin etməklə yanaşı, Azərbaycan xalqının maddi rifahının durmadan yaxşılaşmasını da şərtləndirib. O, qeyd edib ki, ötən dövr ərzində əldə olunmuş sosial-iqtisadi inkişaf göstəriciləri ölkəmizin dünya iqtisadiyyatında baş verən böhran meyillərindən kənarda qalmasını şərtləndirməklə yanaşı, qarşıdakı illər üzrə uzunmüddətli inkişafının təmin edilməsini özündə ehtiva edir: “2012-ci ilin ötən dövrü ərzində Azərbaycanda liberal iqtisadi sistemin daha da dərinləşdirilməsi, diversifikasiya siyasətinin genişləndirilməsi, zəngin təbii sərvətlərdən və regionların potensialından səmərəli istifadə yönündə uğurlu addımlar atılıb. O cümlədən, qeyri-neft sektorunun inkişafını sürətləndirən məqsədyönlü tədbirlərin həyata keçirilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafına geniş şəraitin yaradılması və yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi Azərbaycan iqtisadiyyatının sıçrayışlı inkişafını təmin edib”.

**KAMİL**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# Plüralizm və müasir media: reallıqlara və perspektivlərə baxış




**Demokratiya və aşkarlığın mühüm vasitəsi hesab olunan kütləvi informasiya vasitələrində fikir, söz və məlumat azadlığının yetərincə işıqlandırılması həmişə cəmiyyəti yaxından maraqlandırır. Plüralizm, informasiya azadlığı, ölkəmizdə medianın müxtəlif sferalarının ümumi vəziyyəti, Azərbaycan mətbuatının hazırkı problemləri, inkişaf meylləri və perspektivləri, jurnalistikamızın hazırkı durumu ilə bağlı suallar, demək olar ki, hər kəsin maraq dairəsinə daxildir. Bu kimi məsələlərlə bağlı Bakı Dövlət Universitetinin kafedra müdiri, İctimai Televiziya və Radio Yayım Şurasının sədri, professor Cahangir Məmmədli ilə söhbətləşdik. Görkəmli alimin sözügedən mövzulara fərqli və maraqlı yanaşmalarını oxucularımıza təqdim edirik.**

## PROFESSOR CAHANGİR MƏMMƏDLİ İLƏ SÖHBƏT

*(Əvvəli ötən sayımızda)*

***— Televiziyalarda peşəkarlıq problemini kimlər və necə həll etməlidir?***

— Teleaparıcı televiziyada formalaşır. Onları axtarıb tapmaq lazımdır. İctimai Televiziyada bu proses gedir. Adını çəkdiyim telekanalda informasiya proqramının departament müdirinin müavini Mehriban Məmmədovanı misal çəkirəm. Həmişə müdiriyyətə deyirəm, onun aksenti, vurğuları, sözə və informasiyaya münasibəti məni son dərəcə qane edir. Çünki o, informasiyanı duyaraq təqdim edir. Amma elə aparıcı da var ki, elə bil məlumatla efirdə tanış olur, sanki əvvəlcədən informasiyanı oxumayıb. İnformasiyanı da əvvəlcədən oxuyub, duyub təqdim etmək lazımdır. Belələri azdır, amma prinsipcə var. Bütövlükdə efirdə səhər proqramlarının yaxşı aparıcıları var. Elə proqramlar var ki, onlara həvəslə baxıram. Bəzən özlərini ekspert hesab edənlər çox pessimistcəsinə yanaşaraq deyirlər ki, Azərbaycanda televiziya, aparıcı yoxdur. Belə demək olmaz. Birincisi bunları hazırlamaq lazımdır. Hamımız bu məsələ üçün məsuliyyət daşımalıyıq. Hanı bizim televiziya tənqidimiz? Özümüz məsuliyyət daşıdığımız məsələyə- heç nə yoxdur- deyib cavablar veririk. Daha demirik ki, mən niyə hazırlamıram, mən niyə bu işdə mühüm rol oynamıram? Bax, bu, məni narahat eləyir.

***— Sizin fikrinizcə, hazırda Azərbaycanda teletənqid varmı? Ümumiyyətlə, buna kim cavabdeh olmalıdır?***

— Azərbaycanda televiziya ilə bağlı şikayətlərin bir çoxu da teletənqidin olmaması ilə bağlıdır. Hətta deyərdim ki, bu gün Azərbaycanda televiziya tənqidi yoxdur. Bizdə ekspertlər var. Mən qəzetlərin yerinə olsam, onlara ünvanlanaraq rubrika qoyaram: “Soruşun, cavab verək”. Sovet dövründə qəzetlərdə belə bir rubrika vardı. Bizim ekspertlər ancaq soruşulanda cavablar verirlər. Düzdür, ekspertin vəzifəsi soruşulanda cavab verməkdir. Amma birincisi, bizim ekspertlər televiziya ilə bağlı heç də hamısı obyektiv mövqedən çıxış eləmirlər. Onların hərəsinin bir telekanalla narazı nöqtəsi var. Çox yaxşı olar ki, bu ekspertlər dəyişilsin. Sizi inandırıram, mən də başda olmaqla o ekspertlərə ki, bu gün televiziya ilə bağlı müraciət olunur, onlar artıq çürüyüb. Bunlar hamısı sovet dövründən qalma insanlardır. Düzdür, yeniliyə can atırlar. Qərb modellərinə söykənirlər və sair. Amma hamısının içində özünə sərf eləyən bir deyim olur və onu ifadə edirlər. Bilirsiniz, papaq altında elə oğullar var... Sadəcə, üzə çıxarmaq lazımdır.




***— Kim eləməlidir bunu?***

— Qəzetlər, sizin kimi jurnalistlər axtarış eləməlidir. Hər gün eyni adamlara müraciət eləmək olmaz. Hətta həmin adamlar nə qədər peşəkar mütəxəssis olsalar belə. Mən inanmıram onlar özləri də yorulmaya? Papaq altındakı oğlanları tapmaq lazımdır. Televiziya tənqidinin olmaması günahının böyük bir hissəsi də bizim fakültənin üzərinə düşür. Bizim televiziya kafedrasının yeni müdiri Aynur Kərimova çox bacarıqlı, həm nəzəriyyə, həm praktika cəhətdən mənim qəbul elədiyim bir adamdır. O təklif edir ki, tələbələr içərisindən 3-cü kursdan seçib teletənqidçilər hazırlamaq lazımdır. Mən bu təklifi çox bəyənirəm.

Məsələn, Rusiyada çox ciddi televiziya tənqidi var. “İzvestiya” qəzeti həftədə bir dəfə televiziya tənqidi verir. İrina Petrovskaya adlı ekspert var. Onun ayrıca “İrina Petrovskayanın televiziya həftəsi” adlı bir rubrikası var. Onun araşdırmalarını oxuyuram, o yazılardan bilirəm ki, Rusiyada televiziya nə gündədir, nə vəziyyətdədir. Amma təəssüf, bizdə bu, yoxdur. Bizdə də ayrıca olaraq bu ənənəni ayrıca şəkildə, geniş formatda yaratmaq lazımdır. Yaxşı olardı ki, televiziya nəzəriyyəçiləri, böyük ustadlar ayda bir dəfə hansısa qəzetdə bir səhifə ilə şərh versinlər, televiziyalar haqqında xülasə tərtib etsinlər. Televiziya kanalları da görsün ki, bunların günahı hardadır, nöqsanları nədir və sair.

***—Televiziyaların özündə də belə bir ənənə yaratmaq olmazmı?***

—Heç vaxt adam özü-özünü axıradək obyektiv tənqid etmir. Buna görə də məsələyə qıraqdan yanaşılmalıdır.



***— Bizdə istədiyiniz tənqidi edən olmayacaq. Çünki məşhur ekspertlərin, yaxud dediyiniz kimi “papaq altından çıxarılan oğullar”ın hansısa bir kanala, yaxud onun rəhbərliyinə bəslədiyi simpatiya hissi buna mane olacaq...***

—Məsələyə obyektiv yanaşılanda heç kim incimir və tənqiddən nəticə çıxarır. Konkret sizin qəzeti götürsək, “525-ci qəzet”də televiziya tənqidi ilə bağlı kifayət qədər yaxşı yazılar, tənqidi məqalələr oxumuşam. Bu aydındır ki, iqtidar qəzetləri iqtidaryönümlü televiziyalara dəyməyəcək. Nəzəriyyəçi isə gərək bunlara fikir verməsin. Yazmağın da üsulu və üslubu var. O qədər dəqiq və peşəkarlıqla, etik normaları gözləməklə, “qızım sənə deyirəm, gəlinim, sən eşit” prinsipi ilə deyəndə qəbul edirlər. İnanın ki, İctimai Televiziyada elə ekspertlər var ki, müzakirələrdə məhz həmin ekspertlərin iradlarını elə qəbul edirlər... O qeydlərə çox diqqətlə, vicdanla yanaşırlar. Ola bilsin o müəllifə kimsə deyə bilər ki, o nədir yazmısan? Amma direktor işçilərlə müzakirələr zamanı daha çox həmin məqamlara söykənir. Orada tənqidi iradlara meyil çox ciddidir. Print mətbuatında televiziya tənqidi daha çox olmalıdır.

***— Azərbaycanda yeni jurnalistikanı yarandanlardan danışmağınızı istərdik.***

— Azərbaycanda yeni jurnalistika elə yenidənqurma dövründən başlayır. Ölkəyə demokratik abhava gələndən sonra jurnalistikada ciddi bir inkişaf meyli başladı. Onda mediada yeni qəzet tiplərini quran, Qərb standartlarını Azərbaycanda tətbiq edən Yeni Nəsil Jurnalistlər Birliyi formalaşdı. Rəhbəri Arif Əliyev idi. Heç vaxt unuda bilmərəm ki, mənim də yeni jurnalistikaya meyil etməyimin əsası orada qoyulub. Onlar mətbuat klubu yaratdılar, treninqlər təşkil etdilər, rayonlara getdilər, bir sıra qurumların sponsorluğu ilə çox maraqlı tədbirlər keçirdilər, yeni kitablar çap etdilər. Çox böyük işlər gördülər. Bütün bu əhəmiyyətli işlərin başında Arif Əliyev dayanırdı. Əflatun Amaşovun rəhbəri olduğu dövrdə “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi çox böyük iş gördü. Həmin dövrdə çox ciddi bir proses getdi, kitablar çap olundu, hüquqi məsləhətlər və sair. Azərbaycanda “İnterNyus” deyilən bir qurum yaradıldı. Orada Zeynal Məmmədli, Ələsgər Məmmədli, İlham Səfərli çox böyük işlər gördü. “Media və hüquq”, “Elektron informasiya vasitələrinin hüquqi tənzimlənməsi” kitabları işıq üzü gördü. Adını çəkdiyim qurumlar və insanlar yeni jurnalistika abhavasını Azərbaycan jurnalistikasına gətirdilər. Onlar bizim jurnalistikanı sovet jurnalistikasından dartıb çıxardılar. Yaşlı nəsildən də kim bacardısa, gəldi yeni jurnalistikaya, gələ bilməyənlər isə hələ də sovet jurnalistikası arzusuyla yaşayır. Mən orada böyüdüm. Amma hərdən köhnə əqidəli fikirlərim olursa, bunların günahkarı onlar deyil, özüməm. Məni radikal olmağa qoymayan bəlkə iki səbəb var. Birincisi, Azərbaycan və Azərbaycan vətəndaşlığıdır. Bəzi jurnalistlər, ekspertlər, nəzəriyyəçilər bunu qəbul edə bilmirlər. Deyirlər, informasiya əlinə düşdüsə, onu verməlisən. Mən deyirəm ki, yox, Azərbaycan mənafeyi var. Tələbələrimə də bunu öyrədirəm. Onlar mühazirə oxumamışdan öncə dəftərlərinin birinci səhifəsinə yazırlar: öncə Azərbaycan, sonra jurnalistika. Öncə vətəndaşam, sonra jurnalistəm. Kim məni qınayır, qınasın. Bu mənim nöqteyi-nəzərimdir. Bilirlər ki, məndə məmur bağışlamaq, məmurun nöqsanından keçmək kimi bir xüsusiyyət yoxdur. Harada olsa bunu demişəm: Məmur zəhmət çəksin, düz işləsin. Nöqsanlı məmurlarımız çoxdur. Rüşvət, korrupsiya var, bunu kim inkar eləyir ki? Bunların qarşısını almaq lazımdır. Bunlarla daha çox yeni jurnalistika məşğuldur.

**(Ardı var)**

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Yol gələn səs

Musiqi əsrarəngiz gözəlliyi təbliğ edən sənət incilərindən biridir. O gözəlliyi insanlara çatdırmaq qabiliyyəti isə əlbəttə ki, fitri istedaddan, yüksək peşəkarlıqdan, sənətə məhəbbətdən yaranır. Bütün bu keyfiyyətləri özündə tapanlar sözün, musiqinin sehrinə düşüb nəğmə dolu bir ömür yaşayırlar.

Musiqi elə ecazkar qüvvədir ki, o erkən yaşından insanları ovsunlayır. Hamımızın qüssəli, kədərli günlərimiz, saatlarımız olur.Və çox qəribədir ki, belə anlarda da ecazkar, qəlbləri riqqətə gətirən həzin musiqi köməyimizə çatır. Musiqi ruhumuzu qanadlandırır, bizi uzaqlara aparır, könlümüzü oxşayır, düşüncələrimizə işıq salır. Fikirləşirsən: nədir musiqinin sehri, niyə o, ruhumuzu havalandırır? Bunu bilən yoxdur, ancaq biz onu bilirik ki, musiqinin sehrindən insan övladı heç vaxt xilas olası deyil.

Deyirlər istedad tanrı vergisidir. Lakin istedadın yetişməsində onun doğulub boya-başa çatdığı torpağında, nəfəs aldığı mühitin də payı az deyil. Azərbaycanın hər elinin-obasının özünə məxsusluğu, sərvəti, dəyərləri var. Qarabağı söz-sənət, musiqi diyarı adlandırırlar. Bu diyarda yetişən sənətkarların adları söz-sənət tariximizə qızıl hərflərlə yazılıb. İtirdiyimiz o torpaqlarda doğulan səsi, nəfəsi orada cilalanan neçə-neçə gənc musiqimizdə, ifaçılıq sənətində öz sözlərini deməkdədir.

Dünyaya gəlib-gedən, bir də ki, qalan, həmişəyaşar səslər olur. Gözəl səslər isə doğulur. Səs var ki, ondan büllurluq, həzinlik, kövrəklik qəmi insanı öz ovsununa salır. Və belədə səs sahibinə həm həsəd, həm də heyrət edirsən. Dinlədikcə dinləmək istəyirsən, ruhun dincəlir. Bu ecazkar səsdən ayrılmaq istəmirsən. Səsin qanadında bütün dünyanı dolaşırsan.

Ötən yay səhərlərinin birində Azərbaycan radiosunun dalğalarında bir gəncin məlahətli səsi, ifa etdiyi xalq mahnısı və muğamları məni öz sehrinə saldı. Radio əməkdaşı olduğum üçün bilirdim ki, bu dəqiqələrdə “Gəl, səhərim” publisistik-musiqili proqramının efir vaxtıdır. Həmişəki kimi birbaşa studiyaya qalxdım və istədim ki, pult arxasından olsa da bu gənci görüm. O, 1990-cı ilin avqustun 12-də Ağcabədi rayonunun Rəncbərlər kəndində dünyaya göz açıb. Dost-tanışlar Şakirə, Şəfiqəyə göz aydınlığı verib və gənc ailəni təbrik edib. Şakir uşağın adını Ramiq qoyur. Ağcabədi torpağı Mütəllim Mütəllimov, Yaqub Məmmədov, Sabir Novruzov, Yetim Paşa, Səfa Qəhrəmanov, Qəzənfər Abbasov, Fazil Heydərov, Sahibə Abbasova və Tağı Salehoğlu kimi sənət adamları, onlarla tanınmış şəxsiyyətlər yetirib. Balaca Ramiqin qəribəlikləri anasının gözündən qaçmırdı. Radioda musiqi səslənəndə o, sövqü təbii olaraq əl-qol atar, sevinərdi.

Ramiq tay-tuşları kimi məktəbə gedir, boş vaxtlarında sakit yerə çəkilərək zümzümə edirdi. Onun səsinə gizlincə qulaq asanları heyran edirdi Ramiqin bənzərsiz, möcüzəli səsi. Təbiət bu uşağa bənzərsiz bir səs bəxş etmişdi. Heç kimin səsinə bənzəməyən, oxşamayan bir səs.

Ramiqin maraqlı bir şakəri vardı. Kənddə-kəsəkdə el yığnaqlarını, kənd toylarını həsrətlə gözləyirdi, onların birindən də qalmazdı. Özünü verərdi mağarın bir dalda yerinə və gözlərini dikərdi musiqiçilərə, əsasən də xanəndəyə, onun oturuşunu, duruşunu ədəb-ərkanını diqqətlə izləyər, oxuduğu mahnılara, muğam və təsniflərə qulaq kəsilər, heç nə onun gözündən yayınmazdı. Baxdıqca baxar, dinlədikcə dinləyər, yorulmaq bilməzdi.

Rəncbərlər kənd orta məktəbinin birinci sinfinə gedən Ramiq ilk gündən Ceyran müəllimənin də diqqətini özünə cəlb etmişdi. Şagirdlərin arasında öz davranışı, dərsə münasibəti ilə seçilərdi. Ona görə də məktəbin müəllim və şagird kollektivinin sevimlisinə çevrilmişdi. Öz dilli-dilavərliyi, təhsil ocağında keçirilən tədbirlərdəki çıxışları ilə hamını heyran etmişdi. Hər kəs onu “Bala Bülbül” deyə çağırırdı. Bu istəyi, bu nəvazişi görən Ramiqin oxumağa həvəsi birə-beş artırdı. Evlərindəki köhnə maqnitofonda Mütəllim Mütəllimovun, Yaqub Məmmədovun, Arif Babayevin və başqa muğam ifaçılarının səs yazılarına qulaq asar, onlardan öyrənməyə çalışardı. Azərbaycan Radiosu Ramiqin yol-yoldaşı, sirdaşı idi. Bütün konsertləri və hər bazar günü “Muğam saatı”proqramını diqqətlə izləyərdi. Onu bir amal düşündürürdü: keşkə mənim də məşhur xanəndələr kimi səsim olaydı, radioda oxuyaydım, məni də hamı sevəydi...

El məclislərində, orta məktəbdə və kənddə keçirilən tədbirlərdə hamı bir səslə “Bala Bülbül oxusun” deyə, onun oxumasını istəyərdi. Hər ifadan sonra səslənən alqışlardan fərəh duyan “Bala Bülbül” ürəklərdə yavaş-yavaş özünə yer eləyirdi.

Ramiqin bulaq kimi axan, könüllərdə şimşək kimi çaxan səsi ətraf kəndlərdə də eşidilirdi. Onun Hüsülü, Muğanlı, Hacıbədəlli, Minəxorlu, Təzəkənd və Qaravəlli kəndlərində el şənliklərindəki çıxışları hərarətlə qarşılanırdı. Rəncbərlər kənd orta məktəbinin müəllimi, bir neçə şeirlər kitabının müəllifi və xanəndələrin həmişə ifa etdiyi “Axtar Qarabağda, gəz Qarabağda” qəzəlinin müəllifi Təvəkkül Yanar Ramiqin valideynləri ilə dəfələrlə görüşərək, onun musiqi təhsili almasını məsləhət gördü. Amma Şakir kişi oğlunun bu keşməkeşli, çətin yolda baş çıxaracağına inanmadığı üçün başqa sənət seçməsini söyləyirdi.

Bala Bülbülün yenə də ümidi köhnə maqnitofonuna və Azərbaycan radiosuna idi. Ruhdan düşməyən bu oğlancığaz maqnitofonunu oxudur, radioya qulaq asır, gələcək üçün planlar qururdu. O, ana babasının yaşadığı qonşu Hüsülü kəndində musiqi məktəbinin olduğunu eşidəndə onun sevincinin həddi-hüdudu olmur. Anasından xahiş edir ki, onu musiqi məktəbinə aparsın. Ancaq Şəfiqə xanım hər dəfə bir bəhanə gətirir, Ramiq Rəncbərlərdə qalır. “Bala Bülbül” adını qazanan Ramiqin isə günü-gündən oxumağa həvəsi artırdı. Onun ifalarına qulaq asanlar, bu uşağın gələcəkdə yaxşı xanəndə olacağını söyləyir, ona bu yolda uğurlar diləyirdilər.

Oğullarının camaat tərəfindən sevildiyini görən Şakir kişi, Şəfiqə xanım heç cürə inanmırdılar ki, övladları bu çətin yolda nəyəsə nail ola bilər. Nəhayət, valideynləri Ramiqə musiqi təhsili almağa razılıq verirlər.

O gün Ramiq çox şən görünürdü, üzü gülürdü. Şəfiqə xanım oğlunu Hüsülü kənd musiqi məktəbinə aparacağına söz vermişdi. Ona görə də sabah qonşu kəndə gedəcəyinə sevinən Ramiqin şaqraq səsi bağ-bağata yayılmışdı. Hüsülü kənd musiqi məktəbinin direktoru İlqar Cəfərov Şəfiqə xanımı dinlədikdən sonra bu arıq və cılız uşağın yaxşı səsi olmasına heç cür inanmırdı və məktəbin müəllimləri qarşısında Ramiqi oxutmağı qərara aldı. Hamı səsin sehrinə düşmüşdü. Müəllimlər həyəcanlarını gizlədə bilmirdilər və elə həmin gündən Ramiqi musiqi məktəbində səs şöbəsi olmadığına görə, tar sinfinə qəbul etdilər. Yarım il tar sinfində oxuyan Ramiq rayon mərkəzindəki Üzeyir Hacıbəyli adına İncəsənət Musiqi Məktəbinin solo oxuma-səs şöbəsində təhsil almağı qərara alır və yenə də atasına üz tutur. “Ata, rayon mərkəzindəki musiqi məktəbində səs şöbəsi var. Bəlkə məni ora aparasınız, əgər müəllimlər səsimi bəyənməsələr, yenə də kənddə təhsilimi davam etdirərəm” deyir. Şakir kişi oğluyla Ağcabədinin İncəsənət Musiqi məktəbinə gedir. Ata ilə oğulu qəbul edən musiqi məktəbinin direktoru Ramiqə qulaq asmaq istədiyini deyir. Ramiqin oxuduğu “Segah” hamını heyran eləmişdi.



Rayonda gözəl xanəndə və müəllim kimi tanınan Fazil Heydərov Ramiqi bağrına basır, “sən gələcəkdə tanınmış bir xanəndə olacaqsan” deyir. Elə o gündən Üzeyir Hacıbəyli adına İncəsənət musiqi məktəbinin səs şöbəsinə qəbul olunan Bala Bülbül həvəslə oxumağa başlayır və Fazil müəllimin şagirdi olur.

2005-ci ildə İsmayıllı rayonunda keçirilən “Vətənimiz, dilimiz, mədəniyyətimiz, qabiliyyətimiz” ümumrespublika bədii qiraət və xalq mahnıları ifaçılarının müsabiqəsində münsiflər heyətinə rəhbərlik edən Xalq artisti, ustad xanəndə Canəli Əkbərovun xeyir-duası ilə yüksək yer tutur. 2006-cı ildə isə Astara şəhərində keçirilən III uşaq muğam festivalında ilk dəfə tanınmış xanəndə Mənsum İbrahimovla görüşür və onun xeyir-duası ilə “Fəxri diplom”a layiq görülür. Dəfələrlə rayonda keçirilən tədbirlərdə, hərbi hissələrdə əsgər və zabitlər qarşısında oxuyan Ramiq komandanlıq tərəfindən fəxri fərman və diplomlarla mükafatlandırılır.

Ramiq Bayramov 2008-ci ildə Azərbaycan Milli Konservatoriyasının muğam şöbəsinə qəbul olunur və Xalq artisti Mənsum İbrahimovun sinfində təhsil almağa başlayır. Üç il ustad xanəndənin sinfində muğamın sirlərini öyrənir, son kursu isə Xalq artisti Aygün Bayramovanın sinfində davam etdirən Ramiq Bayramov həmçinin ustad xanəndələrin — Arif Babayev, Əlibaba Məmmədov, Qəzənfər Abbasov və başqa müəllimlərin dərslərində iştirak edir. Ustadlardan muğamın sirlərini dəqiqliklə öyrənmək istəyir.

Azərbaycan Milli Konservatoriyasının fəal tələbələrindən olan Ramiq Bayramov 2011-ci ildə Tehran şəhərində möhtəşəm bir sarayda muğam və xalq mahnılarımızı məharətlə ifa edib, tamaşaçı rəğbətini qazanıb. Müstəqilliyimizin 20 illiyi ilə əlaqədar keçirilən şənliklərdə iştirak edən Ramiq Üzeyir Hacıbəylinin ev muzeyində solo konserti verib. Bala Bülbül doğulub boya-başa çatdığı Ağcabədi rayonunda Ulu öndərimizin doğum günü və Novruz bayramı günlərindəki çıxışları yüzlərlə, minlərlə insanın qəlbinə yol tapıb. Hərbi hissələrdə əsgərlərlə tez-tez görüşən, onların qarşısında böyük konsert proqramı ilə çıxış edən Ramiq vətən oğullarının yaxın dostuna çevrilib, komandanlığın fəxri fərmanına,diplomlarına layiq görülüb.

Gənc xanəndənin tələbəlik illərindəki bir uğurunu da xatırlatmaq istəyirik. İngiltərədən gələn OXFAM şirkətinin nümayəndəsi Azərbaycan Milli Konservatoriyasında olub, gənc xanəndələr arasında seçim aparıb. İfaları ilə Ramiq şirkət nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və ANS TV-nin səsyazma studiyasında gənc xanəndənin səsini yazdırmaqla onun “Eurovision”un reklam çarxında iştirakını təmin edib və buna görə “Eurovision”un reklam çarxındakı iştirakına Ramiq Bayramova Beynəlxalq humanitar təşkilatın sertifikatı verilib.

2012-ci ilin Azərbaycan Milli Konservatoriyasını bitirən Ramiq Bayramov dövlət imtahanlarından da əla qiymətlər alıb. Ustadlar ifasını əla qiymətləndirib. İyunun 14-dən 25-nə kimi Türkiyədə Uluslararası mədəniyyət və folklor festivalında Azərbaycan Respublikasını layiqincə təmsil edib. İfa etdiyi xalq mahnıları və muğamlar festival iştirakçılarını heyran edib, mükafatlara layiq görülüb. Ramiq Bayramovu bir amal düşündürür: valideynlərinin və müəllimlərinin ümidini doğrultsun. Azərbaycan muğamını böyük səhnələrdə ifa etsin.

**Rəhman QULUZADƏ**

# “Fənərbaxça” “play-off”a 4 qolla yüksəldi




Dünən Çempionlar Liqasında III təsnifat mərhələsinin digər cavab görüşləri keçirilib. Qol.Az-ın məlumatına görə, ikinci oyun günündə daha 12 qarşılaşma baş tutub. Bu oyunlardan sonra ÇL-in “play-off” mərhələsinin bütün iştirakçıları bəlli olacaq. Dünən keçirilən iki oyundan sonra “Dinamo” (Kiyev, Ukrayna) və BATE (Belarus) klubları adlarını “play-off”a yazdırıblar. Türkiyənin “Fənərbaxça” klubu da “play-off”a vəsiqə qazana bilərdi. Lakin İstanbul təmsilçisi bunun üçün “Vasluy” (Rumıniya) səddini keçməli idi. İlk oyunda 1:1 hesablı bərabərlik qeydə alındığından cütün taleyinə məhz Rumıniyada aydınlıq gələcəkdi. Fasiləyə bərabərliklə yollanan komandaların duelində ikinci hissədə daha 3 qol olub. Rəqibini daha 3 dəfə məyus edən “Fənərbaxça” “play-off” mərhələsinə adlayıb — 4:1.

Qeyd edək ki, “play-off” mərhələsinin ilk oyunları 21-22 avqust, cavab görüşləri isə bir həftə sonra 28-29 avqustda keçiriləcək.

# Təbrik



Qəmzə balanın avqustun 13-də 1 yaşı tamam olur. Bu şad günü münasibətilə şirin-şəkər balanı babaları Sabir, Vasif, nənələri Solmaz, Şəhla, valideynləri Seymur və Güləbəsdə, dayısı Məhəmmədəli, bibiləri Gülüstan, Aynur, Aytəkin, Zülfiyyə, xalası Nailə, Vüsalə təbrik edirlər.Üzün hər zaman xoşbəxtlikdən gülsün, günlərin şən-firavan keçsin. Nazın-qəmzən bol olsun. Tanrı səni qorusun!

Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.
**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2698
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v “OLAYLAR”ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.